# "Azərlotereya"

## Açıq Səhmdar Cəmiyyəti

## 31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə Maliyyə Hesabatları

"KPMG Audit Azərbaycan" MMC
Port Baku Cənub qülləsi,
Neftçilər prospekti 153,
Bakı, Azərbaycan, AZ1010
Telefon: +994 (12) 404 8910
Faks: +994 (12) 404 8914
İnternet www.kpmg.az

# Müstəqil auditorların hesabatı

## "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına

### Rəy

Biz "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, əlavə edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Şirkətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

### Rəy üçün əsas

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlara əsasən bizim məsuliyyətimiz hesabatımızın *"Maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti"* bölməsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) *(IESBA Məcəlləsi)* və Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə tətbiq olunan etik tələblərə əsasən Şirkətdən müstəqilik və bu tələblər və IESBA Məcəlləsi üzrə digər etik öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Əsas məsələ

Biz sizin diqqətinizi maliyyə hesabatlarına dair 28-ci qeydə çəkmək istərdik. Bu qeyddə 31 dekabr 2020-ci il tarixinə və həmin tarixdə tamamlanan il üzrə təqdim olunan müqayisəli məlumatlara edilən düzəlişlər təsvir edilir. Bu məsələ bizim rəyimizə təsir göstərməmişdir.



"KPMG Audit Azərbaycan" MMC Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmışdır və məsuliyyəti zəmanətlə məhdudlaşdırılmış İngilis şirkəti olan "KPMG International Limited" şirkətinə bağlı müstəqil üzv şirkətlər şəbəkəsinin üzvüdür.

## Müqayisəli məlumatla bağlı digər məsələ

Şirkətin 31 dekabr 2020 və 31 dekabr 2019-cu il (1 yanvar 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatın istinad etdiyi) tarixlərinə və həmin tarixlərdə tamamlanan illər üzrə maliyyə hesabatlarının auditi, maliyyə hesabatlarına dair 28-ci qeyddə təsvir olunan düzəlişlər istisna olmaqla, başqa auditorlar tərəfindən aparılmışdır və həmin auditorlar 3 mart 2021-ci il tarixində həmin maliyyə hesabatlarına dair müsbət rəy bildirmişdir.

31 dekabr 2021-ci il tarixinə və həmin tarixdə tamamlanan il üzrə maliyyə hesabatlarının auditi çərçivəsində biz 31 dekabr 2020-ci il tarixinə və həmin tarixdə tamamlanan il üzrə təqdim olunan müqayisəli məlumatlara və 1 yanvar 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabata düzəliş etmək üçün tətbiq olunan və 28-ci qeyddə təsvir olunan düzəlişlərin auditini apardıq. Biz maliyyə hesabatlarına dair 28-ci qeyddə təsvir olunan düzəlişlər istisna olmaqla, 31 dekabr 2020 və ya 31 dekabr 2019-cu il tarixlərində tamamlanan illər üzrə maliyyə hesabatlarının (hazırkı hesabatda təqdim olunmayan) auditinə, təhlilinə və ya bu hesabatlarla bağlı hər hansı prosedurların icrasına cəlb olunmamışıq. Müvafiq olaraq, biz bütövlükdə həmin maliyyə hesabatlarına dair rəy və ya hər hansı formada əminlik bildirmirik. Bununla belə, bizim rəyimizə görə, 28-ci qeyddə təsvir olunan düzəlişlər düzgündür və düzgün tətbiq edilmişdir.

## Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İdarəetməyə Məsul Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun hazırlanmasına və düzgün təqdimatına, dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin müşahidə olunmadığı maliyyə hesabatlarının hazırlanması üçün öz qənaətinə əsasən zəruri saydığı daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Rəhbərliyin Şirkəti likvidasiya etmək və ya əməliyyatları dayandırmaq niyyətinin olduğu və ya qeyd edilən tədbirlərdən başqa real alternativinin olmadığı hallar istisna olmaqla, maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsi, müvafiq hallarda fəaliyyətin fasiləsizliyi ilə bağlı məsələlərin açıqlanması və hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında, dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi əhatə edən auditor hesabatını təqdim etməkdən ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur, lakin bu BAS əsasında aparılmış auditin əhəmiyyətli təhrifi hər zaman aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhv nəticəsində yarana bilər və istifadəçilərin bu maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlara ayrı-ayrılıqda, yaxud ümumilikdə təsir edə bilməsi əsaslı şəkildə ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

BAS əsasında aparılmış audit çərçivəsində biz bütün audit müddətində peşəkar mühakimə yürüdür və peşəkar inamsızlığımızı qoruyub saxlayırıq. Biz həmçinin:

— Dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını işləyib hazırlayır və icra edir, rəyimizi bildirmək üçün yetərli və müvafiq audit sübutunu əldə edirik. Dələduzluq nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riski səhv nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, məlumatın təhrifli təqdimatı və ya daxili nəzarətə əməl olunmamasından ibarət ola bilər.

— Auditlə bağlı daxili nəzarətə Şirkətin daxili nəzarət sisteminin səmərəliliyinə dair rəyin bildirilməsi üçün deyil, şəraitə uyğun zəruri audit prosedurlarının planlaşdırılması məqsədilə baxırıq.

— İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunu və rəhbərlik tərəfindən aparılmış uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların kafiliyini qiymətləndiririk.

— Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsiz aparılma prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğunun və əldə edilmiş audit sübutları əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması qənaətinə gəldiyimiz halda, audit hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqət cəlb etməliyik, bu cür açıqlamalar qeyri-dəqiq olduğu halda isə fərqli rəy verməliyik. Gəldiyimiz nəticələr audit hesabatımızın hazırlandığı tarixədək əldə edilmiş sübutlara əsaslanır. Bununla belə, sonrakı hadisələr və ya şərait Şirkəti fasiləsiz fəaliyyətini dayandırmağa məcbur edə bilər.

— Açıqlamalar da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə maliyyə hesabatlarında əsas əməliyyatların və hadisələrin ədalətli şəkildə əks etdirilib-etdirilməməsini dəyərləndiririk.

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və müddəti və mühüm audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlarla bağlı idarəetməyə məsul şəxsləri məlumatlandırırıq.

Hazırkı müstəqil auditorlar hesabatının hazırlanması ilə nəticələnmiş audit tapşırığının rəhbəri:

Nəsibə Muradxanova

"KPMG Audit Azərbaycan" MMC

Bakı, Azərbaycan Respublikası

13 iyul 2022-ci il

| AZN | Qeyd | 2021 | 2020 (düzəliş edilmiş*) |
|---|---|---|---|
| Gəlir | 7 | 43,969,708 | 17,792,755 |
| Satışın maya dəyəri | 8 | (23,096,236) | (10,068,377) |
| **Ümumi mənfəət** | | **20,873,472** | **7,724,378** |
| Reklam və marketinq xərcləri | | (883,843) | (74,523) |
| İnzibati xərclər | 9 | (5,954,992) | (2,484,493) |
| Sair əməliyyat (xərcləri) / gəlirləri, xalis | 10 | (1,808,311) | 259,970 |
| **Əməliyyat mənfəəti** | | **12,226,326** | **5,425,332** |
| Maliyyə gəlirləri | 11 | 505,311 | 320,278 |
| Maliyyə xərcləri | 11 | (47,756) | (43,120) |
| **Xalis maliyyə gəlirləri** | | **457,555** | **277,158** |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **12,683,881** | **5,702,490** |
| Mənfəət vergisi xərci | 12 | (5,102,757) | (1,308,978) |
| **İl üzrə mənfəət və cəmi məcmu gəlir** | | **7,581,124** | **4,393,512** |

*Müqayisəli məlumat səhvlərin düzəldilməsi hesabına yenidən təqdim olunur. Qeyd 28-ə baxın. Müqayisəli məlumat təsnifat dəyişikliyinə görə də yenidən təqdim edilmişdir. Qeyd 28-ə baxın.

Hazırkı maliyyə hesabatları 13 iyul 2022-ci il tarixində rəhbərlik tərəfindən təsdiq edilmiş və aşağıdakı şəxslər tərəfindən imzalanmışdır:

Cənab Zafer Reisoğlu
İdarə Heyətinin Sədri

Cənab Osman Karakuş
Maliyyə üzrə Baş Rəhbər

Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

| AZN | Qeyd | 31 dekabr 2021 | 31 dekabr 2020 (düzəliş edilmiş) | 1 yanvar 2020 (düzəliş edilmiş*) |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Əmlak, qurğu və avadanlıq | 13 | 1,349,931 | 284,549 | 259,627 |
| İstifadə hüququ formasında olan aktivlər | 24 | 3,549,713 | 404,492 | 485,450 |
| Qeyri-maddi aktivlər | 14 | 1,844,606 | 30,740 | 34,156 |
| Təxirə salınmış vergi aktivləri | 12 | - | 383,716 | 262,305 |
| **Uzunmüddətli aktivlər** | | **6,744,250** | **1,103,497** | **1,041,538** |
| Mal-material ehtiyatları | 15 | 948,629 | 129,955 | 18,858 |
| Ticari debitor borcları | 16 | 2,147,764 | 987,779 | 791,711 |
| Qabaqcadan ödənişlər | | 119,734 | 316,555 | 281,242 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 17 | 21,901,138 | 8,266,363 | 9,519,323 |
| Sair aktivlər | 18 | 12,115 | 322,929 | 263,203 |
| **Cari aktivlər** | | **25,129,380** | **10,023,581** | **10,874,337** |
| **Cəmi aktivlər** | | **31,873,630** | **11,127,078** | **11,915,875** |
| **Kapital** | | | | |
| Nizamnamə kapitalı | 19 | 200,000 | 200,000 | 200,000 |
| Bölüşdürülməmiş mənfəət | | 9,528,736 | 7,108,390 | 6,819,071 |
| **Cəmi kapital** | | **9,728,736** | **7,308,390** | **7,019,071** |
| **Öhdəliklər** | | | | |
| Uzunmüddətli icarə öhdəliyi | 24 | 474,607 | 225,523 | 350,556 |
| **Uzunmüddətli öhdəliklər** | | **474,607** | **225,523** | **350,556** |
| **Cari öhdəliklər** | | | | |
| Uduşlar üzrə kreditor borcları | 21 | 9,925,111 | 2,845,490 | 2,584,991 |
| Ticari və sair kreditor borcları | 22 | 1,968,825 | 23,512 | 1,083,096 |
| Vergi borcları | 23 | 3,800,401 | 517,619 | 725,041 |
| Qısamüddətli icarə öhdəliyi | 24 | 463,583 | 206,544 | 153,120 |
| Alınmış avanslar | 20 | 1,279,154 | - | - |
| Cari mənfəət vergisi öhdəlikləri | 12 | 3,668,172 | - | - |
| Sair öhdəliklər | 25 | 565,041 | - | - |
| **Cari öhdəliklər** | | **21,670,287** | **3,593,165** | **4,546,248** |
| **Cəmi öhdəliklər** | | **22,144,894** | **3,818,688** | **4,896,804** |
| **Cəmi kapital və öhdəliklər** | | **31,873,630** | **11,127,078** | **11,915,875** |

*Müqayisəli məlumat səhvlərin düzəldilməsi hesabına yenidən təqdim olunur. Qeyd 28-ə baxın. Müqayisəli məlumat təsnifat dəyişikliyinə görə də yenidən təqdim edilmişdir. Qeyd 28-ə baxın.

| AZN | Qeyd | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il tarixinə qalıq, əvvəl təqdim edilmiş** | | **200,000** | **7,868,291** | **8,068,291** |
| Səhvlərin düzəldilməsinin təsiri* | 28 | - | (1,049,220) | (1,049,220) |
| **1 yanvar 2020-ci il tarixinə düzəliş edilmiş qalıq** | | **200,000** | **6,819,071** | **7,019,071** |
| **Cəmi məcmu gəlir (düzəliş edilmiş*)** | | | | |
| İl üzrə mənfəət | | - | 4,393,512 | 4,393,512 |
| **İl üzrə cəmi məcmu gəlir (düzəliş edilmiş*)** | | **-** | **4,393,512** | **4,393,512** |
| **Şirkətin sahibi ilə əməliyyatlar** | | | | |
| Səhmdara ayırmalar | 19 | - | (3,104,193) | (3,104,193) |
| Ödənilmiş dividendlər | 19 | - | (1,000,000) | (1,000,000) |
| **Şirkətin sahibi ilə cəmi əməliyyatlar** | | **-** | **(4,104,193)** | **(4,104,193)** |
| **31 dekabr 2020-ci il tarixinə düzəliş edilmiş qalıq** | | **200,000** | **7,108,390** | **7,308,390** |
| | | | | |
| **1 yanvar 2021-ci il tarixinə qalıq** | | **200,000** | **7,108,390** | **7,308,390** |
| **Cəmi məcmu gəlir** | | | | |
| İl üzrə mənfəət | | - | 7,581,124 | 7,581,124 |
| **İl üzrə cəmi məcmu gəlir** | | **-** | **7,581,124** | **7,581,124** |
| **Şirkət sahibi ilə əməliyyatlar** | | | | |
| Səhmdara ayırmalar | 19 | - | (4,160,778) | (4,160,778) |
| Ödənilmiş dividendlər | 19 | - | (1,000,000) | (1,000,000) |
| **Şirkətin sahibi ilə cəmi əməliyyatlar** | | **-** | **(5,160,778)** | **(5,160,778)** |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | | **200,000** | **9,528,736** | **9,728,736** |

*Müqayisəli məlumat səhvlərin düzəldilməsi hesabına yenidən təqdim olunur. Qeyd 28-ə baxın. Müqayisəli məlumat təsnifat dəyişikliyinə görə də yenidən təqdim edilmişdir. Qeyd 28-ə baxın.

| AZN | Qeyd | 2021 | 2020 (düzəliş edilmiş*) |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | | |
| **İl üzrə mənfəət** | | **7,581,124** | **4,393,512** |
| *Düzəlişlər:* | | | |
| Köhnəlmə və amortizasiya | 13, 14, 24 | 420,564 | 250,479 |
| Əmlak, qurğu və avadanlıqların silinməsindən xərc | | 41,399 | - |
| İl ərzində vaxtı keçmiş tələb edilməyən uduşlar | 10 | (326,197) | (258,367) |
| Mal-material ehtiyatlarının silinməsi | 10 | 465,289 | - |
| ƏDV-nin silinməsi | 10 | 1,686,353 | - |
| Xarici valyuta mübadiləsi üzrə (gəlir) / zərər, xalis | 11 | (237,991) | 809 |
| Maliyyə xərcləri | 11 | 47,756 | 42,311 |
| Maliyyə gəlirləri | 11 | (267,320) | (320,278) |
| Mənfəət vergisi xərci | 12 | 5,102,757 | 1,308,978 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyatlar üzrə pul vəsaitlərinin hərəkəti** | | **14,513,734** | **5,417,444** |
| *Dəyişikliklər:* | | | |
| Ticari debitor borcları | | (16,237,052) | (6,399,337) |
| Qabaqcadan ödəniş | | 196,821 | (35,313) |
| Sair aktivlər | | (1,126,044) | (59,726) |
| Mal-material ehtiyatları | | (1,283,963) | (111,097) |
| Ticari və sair kreditor borcları | | 16,265,940 | 5,181,963 |
| Vergi borcları | | 3,027,970 | (207,422) |
| Sair öhdəliklər | | 601,521 | - |
| Uduşlar üzrə kreditor borcları | | 7,405,818 | 518,866 |
| Alınmış avanslar | | 1,267,900 | - |
| **Əməliyyat fəaliyyətindən əldə edilən pul vəsaitləri** | | **24,632,645** | **4,305,378** |
| Ödənilmiş faiz | 24 | (47,756) | (42,311) |
| Ödənilmiş mənfəət vergisi | | (1,050,869) | (1,430,389) |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **23,534,020** | **2,832,678** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitləri** | | | |
| Alınmış faiz | | 267,320 | 282,000 |
| Əmlak, qurğu və avadanlıqların və qeyri-maddi aktivlərin alınması | | (2,157,388) | (94,447) |
| **İnvestisiya fəaliyyətindən (istifadə olunan) / daxil olan xalis pul vəsaitləri** | | **(1,890,068)** | **187,553** |
| **Maliyyə fəaliyyətindən daxil olan pul vəsaitləri** | | | |
| İcarə öhdəliyi üzrə əsas məbləğin ödənişi | 24 | (2,926,278) | (168,189) |
| Ödənilmiş dividendlər | 19 | (1,000,000) | (1,000,000) |
| Səhmdara ayırmalar | 19 | (4,160,778) | (3,104,193) |
| **Maliyyə fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **(8,087,056)** | **(4,272,382)** |
| **Pul vəsaitləri və onun ekvivalentlərində xalis artım / (azalma)** | | **13,556,896** | **(1,252,151)** |
| 1 yanvar tarixinə pul vəsaitləri və onların ekvivalentləri | 17 | 8,266,363 | 9,519,323 |
| Məzənnə dəyişikliklərinin saxlanılan pul vəsaitlərinə təsiri | | 77,879 | (809) |
| **31 dekabr tarixinə pul vəsaitləri və onların ekvivalentləri** | 17 | **21,901,138** | **8,266,363** |



Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.